**Fövqəladə Hallar Nazirliyində COP29-la bağlı qərargah yaradılıb**

İyulun 4-də Fövqəladə Hallar Nazirliyində bu ilin noyabr ayında Bakıda keçiriləcək COP29-a hazırlıq çərçivəsində aidiyyəti təhlükəsizlik məsələlərinin müzakirəsi məqsədilə fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərovun rəhbərliyi ilə müşavirə keçirilib.

Müşavirədə nazir müavinləri, FHN-in müvafiq struktur bölmə və qurumlarının rəhbərləri iştirak ediblər.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, müşavirədə çıxış edən Kəmaləddin Heydərov BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un ölkəmizdə keçirilməsi barədə qəbul edilmiş qərarın Azərbaycanın növbəti tarixi uğuru olduğunu vurğulayıb. Nazir qeyd edib ki, dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biri hesab olunan COP29-un Azərbaycanda keçirilməsi Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin daim artan beynəlxalq nüfuz və qüdrətindən xəbər verir. O, ölkəmizdə təşkil olunmuş digər beynəlxalq səviyyəli tədbirlər kimi, bu mötəbər tədbirin də uğurla keçiriləcəyinə əminliyini ifadə edib.

Sonra nazir COP29-la bağlı ölkəmizə gələcək çoxsaylı qonaqların, tədbirin keçiriləcəyi, eləcə də qonaqların yerləşəcəyi məkanların və ətraf ərazilərin aidiyyəti təhlükəsizlik məsələlərinin yüksək səviyyədə həll edilməsinin zəruriliyini bildirib. Bu məqsədlə FHN-də yaradılmış və nazirliyin peşəkar əməkdaşlarından ibarət Qərargahın fəaliyyətini qeyd edib, qarşıda duran vəzifələrdən danışıb.

Daha sonra COP29-a hazırlıqla bağlı aidiyyəti təhlükəsizlik məsələlərinin həllinə dair Qərargah üzvlərinin görülmüş işlərlə əlaqədar məruzələri dinlənilib, geniş müzakirə aparılıb.

Müşavirəyə yekun vuran nazir ölkəmizdə keçiriləcək nüfuzlu beynəlxalq tədbirlə əlaqədar Fövqəladə Hallar Nazirliyinin üzərinə düşən vəzifələrin layiqincə yerinə yetirilməsi üçün tapşırıqlarını verib.

**AZƏRTAC**
**2024, 4 iyul**